**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İXRACYÖNÜMLÜ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01–"Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Əbdülhüseyn Şahhüseyn oğlu Zamanov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan–2024**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "İqtisadiyyat və marketinq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Həsən Abid oğlu İsrafilov**

iqtisad elmləri doktoru, dosent
**Yaşar Əzimağa oğlu Məmmədov**

iqtisad elmləri doktoru, dosent
**Niyazi Əlikram oğlu Həsənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.24 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya
şurasının sədri: iqtisad elmləri doktoru, professor
**Ağarza Ağahəsən oğlu Rüstəmov**

Dissertasiya
şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Cavadxan Yusif oğlu Qasımov**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Sadıq Vəli oğlu Salahov**

# TƏDQİQATIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli iqtisadiyyatın dünya iqtisadi təsərrüfat sisteminə qoşulmasında şaxələndirilmiş ixrac potensialının təşkilinə böyük ehtiyac vardır. Bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının qarşısında duran məsələlərdən biri də regionlarda, o cümlədən Naxçıvan Muxtar Respublikasında (Naxçıvan MR) qeyri-neft sahəsində istehsal olunan məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsi, ixracyönümlülüyünün artırılmasıdır.

Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı [1], Azərbaycanda sosial-iqtisadi inkişafı sürətləndirməklə bağlı hədəfləri özündə ehtiva edir. Sistemli və kompleks xarakter daşıyan bu Fərman hökumətin, maliyyə-kredit, vergi təşkilatlarının və sahibkarlığın birgə fəaliyyətinin təşkili tədbirlərini müəyyən etmişdir. Bu fərman digər bir tərəfdən ölkənin məqsədli proqramlarla idarəetmədə təkmilləşdirilmələrin aparılmasının mühüm vasitəsi kimi diqqəti cəlb edir. Qəbul edilmiş bu proqramlar öz mahiyyətinə görə iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sahibkarlığın ayrı-ayrı formalarının sahəvi proqramlarla idarə olunmasından regionların və bütövlükdə milli iqtisadiyyatın vahid proqramlarla idarəetmə təcrübəsində müstəsna yer tutur. Proqramın müəllifi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özü bu barədə demişdir: Müasir dövrdə ölkəmizin sürətli inkişafına nail olmaq üçün kifayət qədər geniş proqramlar icra edilir. Bu proqramların içində əlbəttə ki,ən önəmlisi və ən vacibi 2004-cü ildə qəbul edilmiş "Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramı"dır. Bu proqramda mövcud problemlər daha geniş miqyasda

---

[1] "https://e-qanun.az› framework Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmani Bakı şəhəri, 24 noyabr 2003-cü il № 4 [Elektron resurs]

qoyulmuş və onların həlli üçün geniş miqyaslı təşkilati-iqtisadi tədbirlər müəyyənləşdirilmişdir[2].

Naxçıvan MR-də ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın şaxələndirilməsi prosesi başa çatdırılmalı, innovasiyalaşdırılması prosesi sürətləndirilməlidir. Bundan əlavə qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi təmin olunmalıdır. Bu proseslərdə strateji vəzifələrdən biri də müasir dövrdə Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının dərin təhlilinin aparılması, adekvat meyarlar çərçivəsində bu sahənin imkanlarının müəyyənləşdirilməsi, ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin aşkar edilməsidir.

Bu baxımdan Naxçıvan iqtisadi rayonunda ixracyönümlü iqtisadiyyatın formalaşmasına dair tədqiqatların aparılmasının mühüm əhəmiyyət kəsb etdiyini əminliklə söyləmək olar. Çünki Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın formalaşması və inkişafı istiqamətlərinin müəyyən edilməsi regionda onun nüfuzunu daha da artıra bilər.

Müstəqillik illərində ölkəmizdə xarici-ticarət əlaqələrinin genişləndirilməsi, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin beynəlxalq əmək bölgüsü sistemində yeri, qeyri-neft sektorunun davamlı inkişafı və ixracyönümlülük imkanlarının yüksəldilməsi, ixrac potensialı, onun müasir vəziyyətinin tədqiqi problemləri respublikanın tanınmış iqtisadçı alimlərindən AMEA akademiki Z.A.Səmədzadə, Ə.X.Nuriyev, A.A.Nadirov professorlardan, E.M.Hacızadə, İ.A.Kərimli, Q.N.Manafov, A.Ş.Şəkərəliyev və başqalarının əsərlərində tədqiqat obyekti olmuşdur.

Milli iqtisadi inkişaf və ticarət siyasəti problemləri xarici ölkə alimləri B.M.Bölek, E.F.Avdokuşin, İ.S.Bandarenko, A.A.Bulatov, D.H.Serçov, F.Czyan, P.Cyanşen A.Smit, E.Butler, D.Rikardo, M.Porter, V.R.Lavrençe, P.A.Samuelson, V.Leontyev, C.Stiqlitz və

---

[2] https://www.azerbaijan-news.az/az/ "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın üçüncü ilinin yekunlarına həsr olunmuş konfrans 28 fevral 2012-ci il.

digər tanınmış iqtisadçıların tədqiqatları araşdırmaları daha çox diqqəti cəlb edir.

Azərbaycan Respublikasının xarici-ticarət dövriyyəsinin dinamik artım xüsusiyyətli olduğunu, ölkənin ixracyönümlü iqtisadiyyatının ilbəil inkişaf göstəricilərinin artması, bu sahədə olan problemlərin, xüsusən regional problemlərin öyrənilməsini zəruri edir. Məhz bu nöqteyi-nəzərdən müasir dövrün tələblərinə uyğun olaraq Naxçıvan MR-də ixracyönümlü istiqamətlərin müəyyənləşdirilməsinə ehtiyac vardır.

**Tədqiqatın obyekti** kimi Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın təşkilində iştirak edən milli iqtisadiyyatın ayrı-ayrı sahələri, müxtəlif təsisatların və dövlət strukturlarının fəaliyyəti götürülmüşdür.

**Tədqiqatın predmetini** Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın formalaşması və inkişafı problemlərinin öyrənilməsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi qloballaşma proseslərinin genişləndiyi müasir dövrdə iqtisadi inkişafın davamlılığı, dünya bazarlarına inteqrasiya olunması şəraitində Naxçıvan MR-də dövlətin ixrac potensialının iqtisadi tənzimlənməsinin müasir vəziyyətinin tədqiqi, ixracyönümlü iqtisadiyyatın formalaşması üzrə mövcud problemlərin öyrənilməsi və bu istiqamətdə işlərin aparılması bir məqsəd kimi qarşıya qoyulmuşdur.

**Dissertasiya işinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:**

Naxçıvan MR-də ixrac potensialının tənzimlənməsinin nəzəri konseptual məsələlərinin öyrənilməsi;

- Naxçıvan MR-də iqtisadiyyatın inkişafında ixracın və iqtisadi sahələrin ixrac potensialından istifadənin rolunun qiymətləndirilməsi;
- Naxçıvan MR-in iqtisadiyyatının mövcud vəziyyəti və inkişaf perespektivlərinin təhlil edilərək öyrənilməsi;
- Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın formalaşması və inkişafı üzrə əsas istiqamətlərin tədqiqi;
- Naxçıvan MR-də xarici ticarətin iqtisadi artıma təsir mexanizminin spesifik xüsusiyyətlərinin öyrənilməsi;

- Naxçıvan MR-də qeyri-neft sahələrinin davamlı inkişafı və xarici bazarın tələblərinə uyğun miqdarda və keyfiyyətdə məhsul və xidmət ixracının müəyyənləşdirilməsi;

- Naxçıvan MR-in ixrac potensialının artırılmasına və ixraca dövlət dəstəyinin uzunmüddətli strateji istiqamətlərinin müəyyənləşdirilməsi;

**Tədqiqat metodları**. Tədqiqat işində məntiqi ümumiləşdirmə, müqayisəli və sistemli təhlil, analitik-statistik metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- Naxçıvan iqtisadi rayonunun iqtisadiyyatı innovasiyalaşdırılmalı, ixrac potensiallı təbii-iqtisadi resurslar fəal surətdə təsərrüfat və xarici-ticarət dövriyyəsinə cəlb edilməli, məhsul buraxılışı və onların xarici bazarlara çıxışı (reallaşdırılması) təmin edilməli, iqtisadi inkişaf meyarlarında dəyişikliklər yenilənməlidir;

- Naxçıvan iqtisadi rayonunda iqtisadi sektorlar üzrə istehsalın və ixracın sahə strukturu təkmilləşdirilməli, rəqabətədavamlı və ixracyönümlü milli iqtisadi sahələrin inkişafında dövlət dəstəyinin vacibliyi önə çəkilməlidir;

- Naxçıvan iqtisadi rayonunda ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi və onun qeyri-neft sənayesi sahələrinin şaxələndirilməsi, ixrac prosedurlarının sadələşdirilməsi tədbirləri icra edilməlidir (genişləndirilməlidir);

- Naxçıvan iqtisadi rayonunda təbii ehtiyatların səmərəli işlənməsi, istehsalı, emalı proseslərinin təşkil edilməsi və onların ixrac potensialının qiymətləndirilməsi zəruriliyi vacibdir;

- Naxçıvan iqtisadi rayonunun ayrı-ayrı iqtisadi sahələri üzrə ixrac məhsullarının planlaşdırılması, istehsalı, ixrac təyinatlı meyarlara cavab verməsi və xarici bazarlarda davamlı ixracının təmin edilməsi prosesinə sistemli yanaşmanın təmin olunması və bu hədəflərin qabaqcadan dəqiqliklə qiymətləndirilməsi vacib şərtlərdən biridir;

- Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın formalaşdırılması üçün özəl sektorun ixrac əməliyyatlarında iştirakı genişləndirilməli, ixracın həcminin artırılması üçün stimullaşdırıcı investisiya siyasəti həyata keçirilməlidir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Naxçıvan MR-də milli iqtisadi inkişafla, ixracının artırılması rəqabətqabiliyyətinin yüksəldilməsi üçün mövcud potensiallardan istifadə səviyyəsinin əlaqəsi öyrənilmişdir;
- Naxçıvan MR-də ixrac potensialının artırılmasına təsir göstərən müasir problemlər elmi əsaslandırılmışdır;
- Naxçıvan MR-də xarici ticarətin sərbəstləşdirilməsinin, qonşu dövlətlərlə bu istiqamətdə əlaqələrin sadələşdirilməsi, ixracı artırmaq üçün potensial imkanların təsirləri müəyyən edilmişdir;
- Naxçıvan MR-də daxili bazarın qorunması və yerli istehsalın stimullaşdırılması ilə yanaşı beynəlxalq bazarlarda müqayisəli üstünlüyə malik ola biləcək məhsul və xidmətlər sıralanmışdır;
- Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın formalaşdırılması və ticarətin sərbəstləşdirilməsi şəraitində ixrac imkanlarının tənzimlənməsi prioritetləri müəyyənləşdirilmişdir;
- Naxçıvan MR-də ixrac potensialının artırılması, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, dövlət tənzimlənməsinin iqtisadi mexanizmlərinin yeni münasibətlərə uyğunlaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətləri göstərilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, Naxçıvan MR-ın ixrac potensialından daha səmərəli istifadə üzrə dissertasiya işində əldə olunmuş elmi nəticələr və əsas müddəalardan bu sahədəki problemlərə nəzəri-metodoloji yanaşmaların təkmilləşdirilməsində, dövlət proqramlarının hazırlanmasında və tədris prosesində istifadə oluna bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti** dissertasiya işində verilmiş təcrübi müddəalardan və təkliflərdən Naxçıvan MR-də ixrac potensialından istifadənin tənzimlənməsi problemlərinin həllində, bu məqsədlərlə dövlət dəstəyi mexanizmlərinin yenilənməsində, elmi-tədqiqat müəssisələrində istifadə üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Yerinə yetirilmiş tədqiqat işinin mühüm elmi müddəaları müxtəlif institutların məcmuələrində, həmçinin beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslarda və seminarlarda müzakirə olunmuşdur. Mövzuya uyğun

əldə edilmiş əsas elmi nəticələr 21 məqalədə, o cümlədən 6 indeksli jurnalda dərc edilmişdir.

Dissertasiya işinin informasiya mənbəyi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin müvafiq materiallarından, İqtisadiyyat Nazirliyinin iqtisadi islahatlar, eyni zamanda, ixracyönümlü iqtisadiyyatın formalaşması və inkişafı sahəsində xarici ölkə mütəxəssislərinin tədqiqatlarından istifadə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Tədqiqat işi Naxçıvan Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, doqquz paraqraf, nəticə, həmçinin istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla, 141 kompüter yazısı səhifə həcmindədir.

Dissertasiya işində 19 cədvəl, 5 şəkil sxem verilmiş, istifadə edilmiş ədəbiyyat siyahısında isə 178 ədəbiyyat adı göstərilmişdir.

Ümumilikdə 209720 işarədən istifadə olunmuşdur.

## MÜNDƏRİCAT

**Giriş**

**I FƏSİL. İXRACYÖNÜMLÜ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ İQTİSADİ ƏSASLARI**

1.1. İxracyönümlü iqtisadiyyatın formalaşmasının konseptual əsasları

1.2. İxracyönümlü iqtisadiyyatın inkişafının nəzəri-metodoloji əsasları

1.3. İxracyönümlü iqtisadiyyatın formalaşması istiqamətləri

**II FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İXRACYÖNÜMLÜ İQTİSADİYYATIN FORMALAŞMASININ MÖVCUD VƏZİYYƏTİNİN TƏDQİQİ**

2.1. Naxçıvan Muxtar Respublikasında milli iqtisadiyyatın müasir vəziyyətinin təhlili

2.2. Naxçıvan Muxtar Respublikasında ixracyönümlü iqtisadiyyatın formalaşdırılması mexanizmi və qiymətləndirilməsi

2.3.Naxçıvan Muxtar Respublikasında ixracyönümlü sahibkarlıq sahələrinə dövlət dəstəyi mexanizminin sistemləşdirilməsi

**III FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İXRACYÖNÜMLÜ İQTİSADİYYATIN İNKİŞAFININ ƏSAS PERSPEKTİV İSTİQAMƏTLƏRİ**

3.1. Milli iqtisadiyyatda innovasiya metodlarından istifadənin təkmilləşdilməsi istiqamətləri

3.2.İxracyönümlü sahələrin inkişafına investisiya qoyuluşu cəlbediciliyinin təkmilləşdirilməsi

3.3. İxracyönümlü məhsulların dünya bazarına çıxışının təşkili mexanizminin təkmilləşdirilməsi

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, tədqiqqatın məqsədi və vəzifələri, obyekti və predmeti, nəzəri və metodoloji əsasları, müdafiyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, informasiya bazası, praktiki əhəmiyyəti, tədqiqatın aprobasiyası və tədqiqi göstərilir.

Dissertasiya işinin I fəsli **"İxracyönümlü iqtisadiyyatın formalaşması və inkişafının nəzəri iqtisadi əsasları"** adlanır. Bu fəsildə ölkənin malik olduğu təbii iqlim şəraiti, yeraltı və yerüstü sərvətlərinin mövcudluğu, məhsuldar qüvvələrin inkişafı və maddi istehsal vasitələrinin yerləşdirilməsi, torpağın münbitliyi və onlardan səmərəli istifadənin elmi nəzəri əsasları araşdırılır. Mövcud resursların mənimsənilmə səviyyəsi ixrac potensialından səmərəli istifadəni müəyyən edən amillər, inkişaf etmiş ölkələrin təcrübəsində regionların ixrac potensialından səmərəli istifadə edilməsində dövlət proqramlarının rolu araşdırılır.

Bu fəsildə ixrac potensialının inkişafı və onu şərtləndirən amillər haqqında dünya iqtisadiyyatının klassik nümayəndələrinin və müasir məktəb və cəryanların nəzəriyyələri tədqiq edilmişdir.

Klassik məktəbin nümayəndələri A.Smit və D.Rikardonun mütləq və müqayisəli üstünlüklər nəzəriyyəsinin modifikasiyası İsveç alimləri Eli Hekşer və Bertil Olinin əsərlərində tapıb. Onların nəzəriyyəsi istehsal amillərinin nisbəti nəzəriyyəsi adını alıb. Onların fikrincə, əmək resursları torpaq və kapitala nəzərən artıq olarsa onda əməyə xərclər azalacaq, əksinə olarsa çox olacaqdır. Hekşer-Olin teoreminə görə beynəlxalq mübadilə artıq amillərin nadir amillərlə mübadiləsidir. Yəni ölkə nisbətən daha artıq malik olduğu amillərdən istifadə etməklə istehsal olunan əmtəələri ixrac etməli və əksinə nisbətən daha az malik olduğu və çatışmazlığını hiss etdiyi amilləri, o cümlədən istehsal olunan məhsulları idxal etməlidir.

Nobel mükafatı laureatı V.V.Leontyev göstərdi ki, kapitalın artıqlığına baxmayaraq, ABŞ-ın ixracında əmək tutumlu məhsullar üstünlük təşkil edir.

XX əsrin 90-cı illərində M. Porter rəqabətli üstünlüklər nəzəriyyəsini irəli sürdü. Bu nəzəriyyəyə görə rəqabətli üstünlük

resurslardan istifadənin məhsuldarlığını əks etdirir. Bu prinsip həm müəssisə, həm də milli iqtisadiyyat səviyyəsində doğrudur.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra siyasi və makroiqtisadi sabitlik yaranmış, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın təməli yaradılmışdır. Milli iqtisadiyyatın formalaşması onun müasir vəziyyətinin tədqiqi problemləri yerli iqtisadçılar tərəfindən də öyrənilmişdir.

Respublikamızın iqtisadi inkişafının formalaşmasında neft və təbii qaz hasilatı, neft-kimya, neft-qaz maşınqayırması, neft emalı, elektronika, inşaat materialları, kənd təsərrüfatı məhsulları, nəqliyyat və digər xidmət sahələri, elmi texniki resursları da daxil etməklə Yaxın Şərq dövlətləri arasında mühüm yerlərdən birini tutur.

Ölkəmiz bazar iqtisadiyyatına keçidin ilk illərində daha çox xammal ixracına istiqamətlənmişdirsə, islahatların sonrakı mərhələsində emal sənayesinin inkişafı ixrac məhsulları tərkibində bu məhsulların özünəməxsus yer tutmasına səbəb olmuşdur.

Ölkənin xarici ticarət əlaqələrinin genişləndirilməsi ixrac potensialının artırılması və səmərəliliyinin yüksəldilməsi istiqamətinin müəyyən edilməsi, elmi texniki tərəqqinin inkişafına əsaslanan xarici bazarın tələblərinə uyğun miqdarda və keyfiyyətdə məhsul və xidmət ixrac etmək və təbii məhsullara verilən üstünlük ekoloji siyasətin təkmilləşdirilməsi, və bu kimi digər sahələrin də əsaslandırılması ixrac potensialının düzgün qiymətləndirilməsini tələb edir[3].

Artıq bu gün respublikamızın milli iqtisadiyyatı dünya bazarlarının tələblərinə uyğun rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların çıxarılması üçün geniş imkanlara malikdir. Bu neft maşınqayırması, cihazqayırma, neft-kimya sənayesi, energetika, emal sənayesi, kənd təsərrüfatı, inşaat, nəqliyyat-kommunikasiya daşımaları, turizm, və digər xidmət sahələrində əldə olunmuş nailiyyətlər və milli iqtisadiyyatın surətli inkişafı ilə bağlıdır.

Müasir dövrdə ixracın səmərəliliyinin yüksəldilməsinin əsas yolu onun "intellektləşdirilməsi"dir. Xarici ticarət əlaqələrində bu hal yeni elm və kapital tutumlu məhsulların istehsalının artması, xammal və materialların xüsusi çəkisinin azalması ilə izah olunur.

İxracın uzunmüddətli müvəffəqiyyət qazanmasının əsas şərtlərindən biri də xarici ticarət siyasətinin liberallaşdırılmasıdır.

Gömrük tariflərinin real himayəçilik səviyyəsi beynəlxalq mübadilədə maneələrin kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılmasına istiqamətlənir.

Yuxarıda qeyd edildiyi kimi, əsas məqsəd iqtisadiyyatın ixrac sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsidir[3]. Bu da ilk növbədə yüksək texnoloji məhsulların istehsalı üçün lazım olan avadanlıqların, "nou-hau"nun idxalı ilə mümkündür.

İxracın səmərəliliyinin yüksəldilməsinin əsas şərtlərindən biri də ixracın diversifikasiyalaşmasıdır. Ölkənin xarici ticarət konsepsiyasının ağırlıq mərkəzi bütün məhsul və xidmətlər üzrə idxalı əvəzedəcək istehsal sahələrini inkişaf etdirməklə idxaldan asılılığı azaldır, ixracın şaxələnməsinə xidmət edir.

Ölkələrin dünya iqtisadiyyatında rəqabət üstünlüyünün təmin edilməsi istehsal amillərinin kəmiyyəti ilə deyil, daha çox M. Porterin qeyd etdiyi kimi tərəqqi amillərinə daxil olan ölkənin elmi-texniki, informasiya potensialı, əhalinin ümumi təhsil səviyyəsi, xüsusən, müvafiq istehsal sahələri üzrə ixtisaslı kadrların kəmiyyəti və keyfiyyəti ilə şərtlənir. İqtisadi artımın xarakterində baş verən yeni meyllər öz əksini ölkənin idxal və ixracının strukturunda və onun iqtisadi qiymətləndirilməsində tapır. Nəticə etibarilə ölkənin rəqabətqabiliyyətinin və ixracyönümlülüyünün təmin edilməsi texniki-texnoloji yeniliklər vasitəsi ilə reallaşır.

Müasir texnologiya və kommunikasiyaya əsaslanan rəqabətqabiliyyətli və ixracyönümlü nəhəng sənaye məhəlləsini yaratmaqla dünya standartlarına cavab verən sənaye məhsullarının istehsal edilməsi, idarəetmə və dövlət tənzimləmə sistemlərinin təkmilləşdirilməsi, xammal potensialından səmərəli və məqsədyönlü istifadə etməklə dayanıqlı və davamlı inkişafa nail olmaqdan ibarətdir.

Qloballaşma proseslərinin genişləndiyi müasir dövrdə iqtisadi inkişaf qeyri-neft sektorunun ənənəvi sahələri ilə bərabər, yeni texnologiyaya əsaslanan məhsul istehsalı üzərində qurulan müasir tipli müəssisələrin yaranması ilə xarakterizə olunmalıdır. Bunlarla yanaşı, aqrar-sənaye məhsullarının istehsalını artırmaq, dünya bazarlarında

---

[3] T. İ. Kərimova " İqtisadiyyatin investisiya potensialindan effektiv istifadə problemləri" Avtoreferati Baki-2022 səh 51

ixracyönümlü məhsullar satmaq üçün onların beynəlxalq standartlara uyğun saxlanmasına, çeşidlənməsinə, qablaşdırılmasına və ixracı üçün stimul yaradan digər tələblər də həyata keçirilməlidir.

XXI əsr qloballaşma və dünya iqtisadiyyatına inteqrasiya ölkələrin milli iqtisadiyyatının şaxələndirilməsindən, xarici ticarət fəaliyyətinin genişləndirilməsindən asılıdır. Bu baxımdan, ixrac potensialının inkişafına təsir edən bütün yanaşmalar diqqətlə araşdırılmaqla qiymətləndirilməsi zərurəti ortaya çıxır.

Aparılan tədqiqatlar zamanı Naxçıvan iqtisadi rayonunun mövcud ixrac potensialından səmərəli istifadə edilməsinin iqtisadi mahiyyəti və xüsusiyyətləri, ixracyönümlü iqtisadiyyatının formalaşmasını şərtləndirən amillər, xarici ticarət əlaqələrinin həcminin genişləndirilməsi, məhsulların xarici bazarlarda reallaşmasının nəzəri -metodoloji yanaşmaları araşdırılmışdır.

Dissertasiya işinin **"Naxçıvan Muxtar Respublikasinda ixracyönümlü iqtisadiyyatin formalaşması sahəsində mövcud vəziyyətin tədqiqi"** başlıqlı ikinci fəslində Naxçıvan iqtisadi rayonunun mövcud ixrac potensialından səmərəli istifadə edilməsinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi, Naxçıvan iqtisadi rayonunun təbii sərvətlərindən səmərəli istifadə edilməsinin sosial-iqtisadi təhlili və qiymətləndirilməsi ilə bağlı məsələlərə baxılmışdır.

**Naxçıvan iqtisadi rayonunun iqtisadiyyatı innovasiyalaşdırılmalı, ixrac potensiallı təbii-iqtisadi resurslar fəal surətdə təsərrüfat və xarici ticarət dövriyyəsinə cəlb edilməli, məhsul buraxılışı və onların xarici bazarlarda reallaşdırılması təmin edilməli,iqtisadi inkişaf meyarları yenilənməlidir.**

Regional təkrar istehsal şəraitində regionların ixrac potensialının inkişaf etdirilməsi xarici ticarətin tempinə təsir göstərən əsas vasitələrdən biridir. Odur ki, ümumi iqtisadi inkişafda xarici ticarət dövriyyəsinin həcminin davamlı olaraq artırılması və genişləndirilməsinin xüsusi əhəmiyyəti vardır. Xarici ticarət dövriyyəsinin müsbət qalıqla olması maliyyə ehtiyatlarının artmasına və bölgənin iqtisadi təhlükəsizliyin etibarlı şəkildə təmin olunmasına şərait yaradır.

Naxçıvan iqtisadi rayonunun iqtisadiyyatının mövcud potensialı və daxili resursları blokadanın və pandemiyanın yaratdığı çətinliklərə

baxmayaraq iqtisadiyyatının genişləndirilməsini və ixracın şaxələndirilməsini artırmışdır. Regionda yerli məhsulların istehsalının həcminin ilbəil artması xarici ticarət əlaqələrinin coğrafiyasının genişlənməsinə öz töhfəsini verir. Qeyd etmək lazımdır ki, Naxçıvan iqtisadi rayonunda sahibkarlıq fəaliyyəti üçün investisiya mühiti və potensial imkanlar mövcuddur. Bu imkanlardan səmərəli istifadə etməklə istehsal və xidmət sahələri yaradılmalıdır.

Bu gün qarşıda duran əsas məqsədlərdən biri muxtar respublika məhsullarının xarici bazarlara çıxışını təmin etmək və ölkənin ixrac potensialını artırmaqdır. Bu istiqamətdə atılan addımlardan biri də xaricdə Ticarət Evlərinin yaradılmasıdır. Kiyev, Minsk, Riqa, Varşava şəhərlərində fəaliyyət göstərən "Azərbaycan Ticarət Evləri"ndə muxtar respublika istehsalı olan vafli və şirniyyat məmulatları, "Badamlı" və "Sirab" mineral suları nümayiş olunur. Ötən dövr ərzində yerli istehsal məhsullarının ixrac qabiliyyətinin artırılması və investisiyaların cəlb edilməsi istiqamətində AZPROMO və digər təşkilatlarla mütəmadi olaraq əlaqə saxlanılmış və müzakirələr aparılmışdır.

İxracın artırılmasına nail olmaq üçün qarışıda duran əsas istiqamət müəssisələrin mövcud potensialını inkişaf etdirmək, rəqabətqabiliyyətli və yüksək keyfiyyətli məhsulların istehsalını təşviq etmək və daha geniş məkanda təbliğini təmin etmək, eləcə də real sektorda dayanıqlı ixraca nail olmaqdan ibarətdir. Naxçıvan mənşəli ixracyönümlü məhsul və xidmətlərin xarici bazarlarda təşviqini gücləndirməkdə əsas məqsəd ixracatçıların imkanlarını daha da artırmaqdır. Bu məqsədlə ötən dövr ərzində müxtəlif ölkələrdəki beynəlxalq tədbirlərdə muxtar respublikanın bir çox sahibkarlıq subyektinin iştirakı təmin edilmişdir.

İxrac potensialının daxili məzmunu və mürəkkəb quruluşu çoxlu sayda müxtəlif amillərin hesabına formalaşır. Bu amillərə ilk növbədə karbohidrogen ehtiyatları ilə zəngin olan ölkələrdə neftdən kənar ixracın dinamikası və struktur dəyişikliklərinə, neftdən daxil olan vəsait müxtəlif kanallarla həyata keçirilən proses kimi ixrac potensialına təsir göstərir. Bu ilk növbədə biznes mühitində, iqtisadiyyatda, özəl sektorun inkişafında, istehsalın infrastrukturunda, insan kapitalının inkişafında öz müsbət təsirini göstərməkdədir.

Hər şeydən əvvəl qeyri-neft məhsullarının adambaşına ixrac həcminin yüksəliş meylinin artması və əhalinin hər nəfərinə görə elektrik enerjisi göstəricisinin artmasında öz müsbət təsirini göstərməkdədir. Digər amillərə elmi texniki tərəqqi, əsas vəsaitlərin keyfiyyətinin yüksəldilməsi, istehsal fondlarından istifadənin yaxşılaşdırılması, yeni və daha faydalı qazıntıların aşkar edilməsi, nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, beynəlxalq əmək bölgüsü, işçi qüvvəsinin təkmilləşdirilməsi, beynəlxalq iqtisadi əməkdaşlıqların inkişaf etdirilməsi daxil edilir. Bu amillərin hər birinin ixrac potensialına təsiri əhəmiyyətli dərəcədə fərqlənir. Bu amillərin hər biri ilkin olaraq bütövlükdə ixrac potensialına deyil, onu təşkil edən ayrı-ayrı tərkib elementlərinə təsir edir. Nəticədə ölkənin ixrac potensialının yeni və yüksək səviyyəsi onun tərkib hissələrinin ixrac imkanlarının yekunu əsasında formalaşır.

Yuxarıda göstərilənlərə əsasən Naxçıvan iqtisadi rayonunda ixrac potensialının perspektiv inkişaf istiqamətlərinin çoxluğu, üstünlük təşkil edən cəlbedici ixrac potensialının səmərəli inkişaf meyarlarının yenilənməsi ixracyönümlü məhsulların dünya bazarında reallaşmasında əhəmiyyətli rol oynayır.

**Naxçıvan iqtisadi rayonunda iqtisadi sektorlar üzrə istehsalın və ixracın sahə strukturu təkmilləşdirilməli, rəqabətədavamlı və ixracyönümlü milli iqtisadiyyat sahələrinin inkişafına, dövlət dəstəyinə əhəmiyyət verilməlidir;**

Sahibkarlıq fəaliyyətinin inkişafında başlıca məsələlərdən biri onun sosial-iqtisadi xarakter daşımasıdır. Muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə bağlı yaradılan şərait iqtisadiyyatın inkişafını təmin etməklə yeni iş yerləri açılmış, əhalinin məşğulluğu təmin edilmiş, yoxsulluğun səviyyəsi aşağı salınmış, maddi rifah halı xeyli yüksəlmişdir.

Naxçıvan iqtisadi rayonunda iqtisadiyyatın ikinci ən böyük sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə, dövlət dəstəyi kənd təsərrüfatında mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib.

Naxçıvan iqtisadi rayonu inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye regionudur. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, dolomit və duz məhsulları, mineral sular, metal emalı və tikinti materialları, tütün məmulatları, meyvə-tərəvəz məhsulları, vafli-peçenyelər və yüngül sənayesi var. Kənd təsərrüfatı əsasən taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, yemçilik, heyvandarlıqda isə maldarlıq, qoyunçuluq, quşçuluq, balıqçılıq, arıçılıq inkişaf etdirilir[4]. Aparılan uğurlu siyasətin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasının ümumi daxili məhsulunda kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi 19,7 %-ə yüksəlmişdir .

Naxçıvan iqtisadi rayonunda milli iqtisadiyyatın inkişafının başlıca xüsusiyyəti hər bir rayonun ayrılıqda əmək və təbii ehtiyatlarından səmərəli istifadə etməklə yeni istehsal müəssisələrinin yaradılmasından, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsindən, yoxsulluğun azaldılmasından, rifah halının yaxşılaşdırılmasından ibarətdir.

Məhz bu baxımdan Naxçıvan MR-də 2006-cı ildə "Naxçıvan Muxtar Respublikası sahibkarlıq konfederasiyası" yaradılmışdır [5] . Sahibkarlıq konfederasiyası yaradıldığı gündən sahibkarlara öz dəstəyini göstərməklə müxtəlif təyinatlı kənd təsərrüfatı və sənaye məhsulları istehsal edən 33 üzvü özündə birləşdirir. Ailə təsərrüfatları fiziki və hüquqi şəxslər konfederasiya ilə daim əlaqə saxlayır.

Naxçıvan MR-də sahibkarlıq fəaliyyətinin bütün sahələrdə inkişafı yerli resurslardan istifadə etməklə istehsalın artırılmasına, daxili bazarın tələbatının yerli məhsullar hesabına ödənilməsinə, idxaldan asılılığın azaldılmasına, xarici ticarət əlaqələrinin genişləndirilməsinə, ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalına səbəb olmuşdur.

---

[4] Zamanov, Ə.Ş. Sahibkarlığın inkişafı ərzaq təhlükəsizliyinin başlıca şərtidir."Naxçıvan Muxtar Respublikasında Ərzaq təhlükəsizliyi: yerli istehsal vəuğurlu nəticələr" mövzusunda respublikakonfransının materialları Naxçıvan 2021 s 86-87

[5] . http://oldstatistika.nmr.az › dinamik.inkisaf.pdf Muxtar respublikada iqtisadi və sosial sahələrdə dinamik inkişaf təmin edilmişdir səh 10

Azərbaycan dövlətinin regional siyasətində Naxçıvan iqtisadi rayonunun bu günkü inkişafı onu deməyə əsas verir ki, qloballaşma meyarlarına və modernləşməyə əsaslanan məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyatda yüksık keyfiyyət dəyişiklikləri yaranacaq, innovasiyalı iqtisadiyyata keçid təmin edilməklə iqtisadiyyatın bütün sahələrində dinamik artım əldə olunması üçün geniş imkanlar yaranacaqdır[6].

**Naxçıvan iqtisadi rayonunda ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi və onun qeyri-neft sənayesi sahələrinin genişləndirilməsi, ixrac proseduralarının sadələşdirilməsi tədbirləri genişləndirilməlidir;**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə işlənib hazırlanmış və ardıcıllıqla həyata keçirilən yeni "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" (2004-2008-ci illər) Dövlət Proqramı iqtisadi rayonlarda yığılıb qalan məsələlərin yerinə yetirilməsində həlledici mərhələ oldu[7]. Bu proqramın icrası digər regionlarda olduğu kimi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına da öz müsbət təsirini göstərmişdir. Dövlət Proqramlarının yerinə yetirilməsi öz təsirini ÜDM artım tempində aydın göstərdi.

**Cədvəl 1.**

**Naxçıvan Muxtar Respublikasının 1995-2022-ci illər ərzində ÜDM həcmi (milyon manatla)**

| İllər | Cəmi | | Bir nəfərə düşən ÜDM | | 1$ = manat |
|---|---|---|---|---|---|
| | Milyon manat | milyon ABŞ $ | manat | ABŞ $ | |
| 1995 | 43,7 | 49,5 | 131,9 | 149,3 | 0,8835 |
| 2000 | 84,8 | 94,8 | 236,2 | 264 | 0,8948 |
| 2005 | 305,8 | 323,2 | 807,3 | 853,4 | 0,9460 |

6 Zamanov, Ə.Ş. Sahibkarlığın inkişafı ərzaq təhlükəsizliyinin başlıca şərtidir."Naxçıvan Muxtar Respublikasında Ərzaq təhlükəsizliyi: yerli istehsal vəuğurlu nəticələr" mövzusunda respublikakonfransının materialları Naxçıvan 2021 s 86

7 https://e-qanun.az/framework/4797 Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

| | | | | | |
|---|---|---|---|---|---|
| 2010 | 1171,3 | 1459,4 | 2882,9 | 3591,9 | 0,8026 |
| 2015 | 2467,4 | 2404,6 | 5581,1 | 5439,1 | 1,0261 |
| 2016 | 2582,3 | 1618,1 | 5779,7 | 3621,6 | 1,5959 |
| 2017 | 2701,6 | 1569,7 | 5990,4 | 3480,6 | 1,7211 |
| 2018 | 2773,0 | 1631,2 | 6101,3 | 3589,0 | 1,7000 |
| 2019 | 2839,6 | 1670,4 | 6201,5 | 3647,9 | 1,7000 |
| 2020 | 2907,8 | 1710,5 | 6310,4 | 3712,0 | 1,7000 |
| 2021 | 3016,3 | 1774,3 | 6524,6 | 3838,0 | 1,7000 |
| 2022 | 2990,1 | 1758,9 | 6440,1 | 3788,3 | 1,7000 |

Mənbə: ARDSK https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/.

Cədvəl məlumtlarının təhlilindən görünür ki, 2010-cu ildə ÜDM-nin həcmi yüksələrək 1171,3 milyon manat olmuşdur. Bu göstərici 2005-ci illə müqayisədə 3,8 dəfə çox, onun hər bir nəfərə düşən həcmi isə 2882,9 manata və ya müqayisə olunan dövrə nisbətən 3,5 dəfə artmışdır. 2015-ci ildə ÜDM həcmi 2010-cu illə müqayisədə 2,1dəfə artaraq 2 milyard 467,4 milyon manat olmuşdur. Onun bir nəfərə düşən həcmi 5581,1manat təşkil etmişdir ki, bu da 2010-cu ilə nisbətən 1,9 dəfə çoxdur. Dinamikadan da görünür ki, ÜDM həcmi illər üzrə artan yekunla davam etməkdədir. 2022-ci ildə ÜDM-un həcmi1995-ci ilə nisbətən 68,3 dəfə artaraq 2 milyard 990,1 milyon manata çatmışdır. ÜDM adambaşına düşən həcmi 1995-ci ilin müvafiq dövrünə nisbətən 48,8 dəfə çox artaraq 6440,1 manata çatmışdır[8].

XXI əsrin əvvəllərində Naxçıvan MR-də sənaye potensialının müntəzəm olaraq yeni texnologiya və avadanlıqlarla gücləndirilməsi öz bəhrəsini verməkdədir. Həmin məhsullar üzrə istehsalın təhlili 2000-2022-ci illər üzrə istehsalın müqayisəli təhlilinə əsaslanmışdır. Həmin göstəricilər aşağıda şəkil 1-də verilmişdir.

[8] Ə.Zamanov. Naxçivan MR-in rəqabətqabiliyyətli və ixracyönümlü inkişafina keçidin innovativ istiqamətləri"Azərbaycan respublikası İqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu respublika elmi konfransın materialları 2020 səh100-101

Şəkil 1.

**Naxçıvan Muxtar Respublikasında 2000-2022-ci illərdə istehsal olunmuş sənaye məhsulunun dəyişən dinamikası (milyon manatla)**




Mənbə: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ əsasında müəllif tərəfindən tərtib etmişdir.

Görülən işlərin nəticəsidir ki, muxta respublikada sənaye məhsulu 2000-ci ildə 13,7 milyon manat olmuşdusa, 2005-ci ildə bu göstərici 7,2 % artaraq 41,2 milyon manat olmuşdur. 2020-ci ildə sənaye məhsulunun həcmi 2019-cu ilə nisbətən 1,4 % artaraq 1 milyard 040,4 milyon manat, 2022-ci ildə isə 1milyard 048,5 milyon manat olmuşdur .

Qeyd etmək lazımdır ki, muxtar respublikada yeni sənaye müəssisələrinin yaradılması istiqamətində görülən tədbirlərin nəticəsində 2022-ci ildə sənaye müəssisələrinin sayı 109-a, çalışanların orta sayı isə 16763 nəfər olmuşdur. Qeyd edək ki, hazırda muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrində ərzaq məhsulları, müxtəlif tikinti materialları, avtomobil, mebel, bir sıra hazır metal məmulatları, mineral və kimyəvi məhsullar, rezin, plastmas, kağız, karton və s.istehsal olunur.

Naxçıvan Muxtar Respublikası bir çox sənaye məhsulları üzrə özünü təmin edir və sənaye müəssisələrinin məhsullarını xarici bazarlara çıxarır. Hazırda muxtar respublikada sənayenin sahə strukturunda əsas yerə sahib olan yeyinti sənayesi içki və tütün daxil

olmaqla bir sıra qida məhsullarının istehsalını, yüngül sənayesi isə toxuculuq, tikiş, dəri, dəri məmulatları və ayaqqabı istehsalını əhatə edir. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur.

Yeni sənaye müəssisələrinin yaradılması istehsal olunmuş yeni məhsul növlərinin say tərkibinin artmasına, həmçinin istehsalın genişləndirilməsi ixracın da həcminə öz müsbət təsirini göstərmişdir. Nəticədə bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal məhsulları hesabına ödənir.

Müasir infrastruktura malik olan sənaye parklarının yaradılması sənayenin inkişafını nəzərdə tutan dövlət siyasətinin mühüm hissəsini təşkil edir. Aparılan iqtisadi siyasətin davam etdirilməsi və sənayenin modernləşdirilməsini təmin etmək məqsədilə təsdiq edilmiş sənaye məhəllələri haqda əsasnamə bu sahənin daha da sürətli inkişafı üçün yeni imkanlar açacaqdır.

**Naxçıvan iqtisadi rayonundatəbii ehtiyatların səmərəli işlənməsi, istehsalı, emalı proseslərinin təşkil edilməsi və onların ixrac potensialının qiymətləndirilməsi zəruridir;**

2004-2008-ci illər üçün qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı və digər normativ hüquqi aktların qəbul edilməsi sahibkarlığa göstərilən dövlət qayğısı və dəstək 2010-cu ildən başlayaraq bütün sahələrdə olduğu kimi xarici ticarət dövriyyəsində ixracın xüsusi çəkisinin artmasına idxalın isə azalmasına səbəb olmuşdur. Naxçıvan MR-in xarici ticarət dövriyyəsi 2020-ci ildə 510,4 milyon ABŞ dolları təşkil edir. Xarici ticarət dövriyyəsinin 82,0 milyon ABŞ dolları idxal, 428,4 milyon ABŞ dolları isə ixrac təşkil edir. İdxal-ixrac əməliyyatı üzrə müsbət qalıq 346,5 milyon ABŞ dolları təşkil edir ki, bu da 2000-ci illə müqayisədə ticarət dövriyyəsi 20,2 dəfə çox artıb, idxal əməliyyatı üzrə 2,4dəfə artmış, ticarət balansı isə 2010-cü ildən başlayaraq mənfidən müsbətə keçməklə 346,4 milyon ABŞ dolları olmuşdur[9].

[9] Zamanov, Ə.Ş. Naxçıvan-Türkiyə ticarət iqtisadi əlaqələrinin müasir vəziyyəti və təkmilləşdirilməsi yolları. (Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə). Naxçıvan.: - Qeyrət nəşriyyatı, - 2019. - s.115-120 səh 116

Naxçıvanın idxal olunan məhsullarının dəyər ifadəsində əmtəə strukturunu ölkələr üzrə qruplaşdıraraq belə qənaətə gəlmək olar ki, son dövrlər ölkədə iqtisadi əməkdaşlıq sahəsində aparılan işlər iqtisadi-ticarət əlaqələrinin inkişaf edərək yüksəlməsinə səbəb olmuşdur. (cədvəl 2)

**Cədvəl 2.**

**Naxçıvan Muxtar Respublikasında 2000-2020-ci illər üzrə qeydə alınmış ticarət dövriyyəsi (milyon manatla)**

| Sıra | İllər | cəmi XTD | Xarici ticarət dövriyyəsi | | saldo | % |
|---|---|---|---|---|---|---|
| | | | **idxal** | **ixrac** | | |
| 1 | 2000 | 25.2 | 23.7 | 1.5 | -22.2 | |
| 2 | 2005 | 53.5 | 50.8 | 2.6 | -48.2 | 2.1dəfə |
| 3 | 2010 | 257.9 | 46.2 | 211.7 | +165.5 | 4.8dəfə |
| 4 | 2015 | 512,3 | 97,9 | 414,4 | +316,5 | 1.9dəfə |
| 5 | 2016 | 463,2 | 44,1 | 419,1 | +374,2 | 90.4 |
| 6 | 2017 | 459,9 | 36,6 | 423,3 | +386,7 | 99.3 |
| 7 | 2018 | 483,4 | 59,1 | 424,3 | +365,2 | 105.1 |
| 8 | 2019 | 497,0 | 71,5 | 425,5 | +354 | 102.8 |
| 9 | 2020 | 510,4 | 82,0 | 428,4 | +346,4 | 102.7 |

Mənbə: .https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ əsasında müəllif tərəfindən tərtib etmişdir

Belə ki, muxtar respublikaya idxal olunan məhsulların içərisində əsas pay sahibi Türkiyə və İran İslam Respublikasıdır. Göründüyü kimi, Türkiyə çoxşaxəli sənaye ölkəsi olduğundan idxalın strukturu daha genişdir və daha çox sahələri əhatə edir.

Tədqiqat işində idxal olunan məhsulların qruplaşdırılmasının dinamikasına nəzər salarkən müəyyən olur ki, sənaye məhsullarının xüsusi çəkisi 10-30 faiz arasında dəyişir. Təhlildən və kənd təsərrüfatı məhsullarının artım dinamikasından da göründüyü kimi ərzaq məhsullarına olan tələbatın 2018-ci ildə 40 % dən 17 %-ə düşmüşdür, bu da onu deməyə əsas verir ki, istehsal olunan yerli

məhsulların artması daxili bazarın tələbatının ödənilməsində əsas rol oynayır[10] .

Naxçıvan iqtisadi rayonunda son illər sahibkarlığın inkişafında fəaliyyət göstərən bir sıra özəl şirkətlər yaranmışdır. Belə ki, "Nəqşicahan Holdinq Şirkətlər qrupu" MMC, "Karbon qazı zavodu", "Cahan Holdinq" Kommersiya şirkətlər ittifaqı, "Sumqala Tikinti təchizatı" MMC, "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC, "Naxçıvan Məhsulları" MMC, "GəmiqayaHoldinq", "Naxçıvan bağları", "Sirab", "Badamlı" mineral suları və s. şirkətlər dünya bazarlarında tanınmaqdadırlar.

Dissertasiya işinin təhlilindən görünür ki, sahibkarların idxal etdiyi xammal və sənaye məhsullarının da xüsusi çəkisi durmadan artmaqdadır. Naxçıvan iqtisadi rayonunda sənaye müəssisələrinin sayı 1995-ci ildə 56 olmuşdursa, 2022-ci ildə 1,9 dəfə artaraq 109-a çatmışdır[11].

Dövlət səviyyəsində cəlbediciliyi daha yüksək qiymətləndirilən Naxçıvan iqtisadi rayonu üzrə ixrac potensialının inkişafının mövcud vəziyyəti və proqram xarakterli regional idarəetmənin məzmunu təhlil edilmişdir.

Dissertasiya işinin "**Naxçıvan Muxtar Respublikasinda ixracyönümlü iqtisadiyyatin inkişafinin əsas perspektiv istiqamətləri"**adlı üçüncü fəslində Naxçıvan iqtisadi rayonunda ixrac potensiallı iqtisadi resurslardan səmərəli istifadə olunması və ona təsir edən amillərin təkmilləşdirilməsi istiqamətləri araşdırılmış və araşdırma nəticəsində elmi müddəalar qruplaşdırılmışdır.

**Naxçıvan iqtisadi rayonunu ayrı-ayrı iqtisadi sahələri üzrə ixrac məhsullarının planlaşdırılması, istehsalı, ixrac təyinatlı meyarlara cavab verməsi və xarici bazarlarda davamlı ixracının təmin edilməsi prosesinə sistemli yanaşmanın təmin olunması və bu hədəflərin qabaqcadan dəqiqliklə qiymətləndirilməsi vacib şərtlərdən biridir.**

---

[10]Zamanov, Ə.Ş. Naxçıvan-Türkiyə ticarət iqtisadi əlaqələrinin müasir vəziyyəti və təkmilləşdirilməsi yolları. (Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə). Naxçıvan.: - Qeyrət nəşriyyatı, - 2019. - səh 117

[11] tps://www.stat.gov.az/source/regions/ Regionlar veb ünvanı.

Göstərilən istiqamətlərdə aparılan işlər xarici ticarət əlaqələrinin daha da genişləndirilməsinə imkan verir. Naxçıvan mənşəli məhsulların xarici bazarlara çıxarılması məqsədilə lazımi tədbirlərin həyata keçirilməsi, onun ixrac imkanlarını daha da artırır. Naxçıvanın əsas ixrac məhsulları arasında "Made in Azərbaijan" brendi altında xarici bazarlarda "Badamlı", "Sirab" mineral suları, emal olunmuş ət məhsulları, otlardan hazırlanmış çaylar, spirtli və qazlı aromatlaşdırılmış içkilər, təzə meyvə və meyvə şirələri, tikinti materialları, duz məhsullarını göstərmək olar.

Dissertasiya işinin təhlilindən və araşdırmalardan da görünür ki, Naxçıvan iqtisadi rayonundan ixrac olunan məhsulun orta hesabla 76 %-i sənaye məhsulunun, 24 %-i kənd təsərrüfatı məhsullarının payına düşür [12] . Göstərilənlər onu deməyə əsas verir ki, kənd təsərrüfatı məhsulları bazarın daxili tələbatını ödəməklə bərabər sənayenin xammala olan tələbatını ödəyir və artıq istehsal olunan məhsullar xarici bazarlara satışa çıxarılır.

İqtisadiyyatın bütün sahələrində səmərəliliyin artırılması, rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafı dövlətin əsas prioritetlərindən biridir. Azərbaycan Respublikası Prezidentinin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında"[13] 18 yanvar 2016-cı il tarixli sərəncamı, "Qeyri-neft məhsullarının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında[14]" 01 mart 2016 cı il tarixli fərmanı bu sahənin inkişafının yeni mərhələsinə qədəm qoymuşdur.

Naxçıvan MR-də istehsalın və ixracın sahə strukturu təkmilləşdirilməlidir, ölkədəki mövcud ixrac potensiallı təbii-iqtisadi resurslar fəal surətdə təsərrüfat və xarici ticarət dövriyyəsinə cəlb edilməlidir.

---

[12] Zamanov, Ə.Ş. Naxçıvan-Türkiyə ticarət iqtisadi əlaqələrinin müasir vəziyyəti və təkmilləşdirilməsi yolları. (Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə). Naxçıvan.: - Qeyrət nəşriyyatı, - 2019. - il səh 116

[13] https://president.az/az/articles/view/17535 Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 18 yanvar 2016,

[14] http: www.yap.org.az/az/view/nevs/41041/. 9. http . “Qeyri-neft məhsullarının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 01 mart 2016-cı il tarixli fərman.

- Ordubad qrupu qızıl mis molibden yataqları, Əylis ərazisində perspektivli qızıl ehtiyatları, Başkənd mis, Ortakənd-Xanağa köklü qızıl təzahürləri və bir sıra polimetal minerallaşma yataqları;

- Şərur rayonun yaxınlığında olan Gümüşlü polimetal, tavetin, mərmər, tuf daşı və s. yataqları;

- Nehrəm dolomit yataqları hesablamalara görə 140 milyon tonlarla ehtiyata malik olmaqla nəhəng yataqdır. Son dövrlərdə xərtələşdirilərək ehtiyatda saxlanılan meqrel yataqları, teşenit yatağı, Parağaçayın yuxarı axınında aşkar edilmiş yüksək keyfiyyətli anduluzit yatağı, Nehrəm kəndi yaxınlığında kimya sənayesi üçün xammal hesab edilən qara və göy rəng alınmasında eləcədə dəri, yun, ipək boyamasında istifadə olunan melanter yataqları;

- Naxçıvan iqtisadi rayonunda qeyri-filiz yataqları bütün rayon ərazisində olmaqla təqribən 4060 ha torpaq sahəsini əhatə edir. Bunlar arasında ehtiyatların ölçüsünə görə üstün yerləri daş duz və tikinti materialları tutur. Duz əsasən Nehrəm, Sust və istismar olunan Duzdağı və Naxçıvan daşduz yataqları mövcuddur. Daşduz qarışıqlardan təmizləndikdən sonra yeyinti sənayesində işlədilməklə yanaşı ondan xlor, natrium, xlorid turşusu və başqa duzlar alınır. Daşduz kənd təsərrüfatında, sənayedə, tibdə, metallurgiyada, toxuculuq və boya işlərində məişət və təsərrüfat işlərində geniş istifadə olunur.

- Naxçıvan MR-də təbii daş, mərmər, qum-çınqıl, gəc, əhəng daşı və digər tikinti materialları ilə daha zəngindir. Bu yataqlar fəal surətdə dövriyəyə cəlb edilməklə ixrac potensialının artırılmasında yüksək rol oynaya bilər[15].

Xarici ticarət nəzəriyyəsinə görə, ixrac potensialının tənzimlənməsində başlıca məqsədin əsas şərti milli iqtisadiyyatın davamlı inkişafının təmin olunması və makroiqtisadi sabitliyin qorunub saxlanılmasıdır.

Buradan aydın olur ki, bu iki amil bir-biri ilə qarşılıqlı surətdə əlaqədədir. Buna görə də ixrac potensialının qurulması, formalaşması və istiqamətlənməsinin dövlət tənzimlənməsi məsələlərini

[15] V.N.Nağiyev, İ.Ə.Məmmədov Naxçivan Muxtar Respublikasinin faydali qazintilari bakı – "Elm" – 2010-cu il səh 240

aydınlaşdırarkən makroiqtisadi göstəricilərin dəqiqliklə öyrənilməsi və milli iqtisadiyyatda müşahidə edilən tendensiyaların tədqiqi zəruridir

İxrac potensialından səmərəli istifadə göstəricilərindən biri də regionun ixracının artım səviyyəsi ilə mövcud sahələrin ixrac potensialı arasındakı uyğunluğu məsələsidir. Gərək regionda ümumi daxili məhsul istehsalının artımı ilə ixracdakı artımın həcmi uyğun olsun. Regiondakı artan müsbət saldodan və maliyyə resurslarından daha səmərəli istifadə etməklə ixrac potensiallarını effektli reallaşdırmaq olar. İqtisadi rayonda güclü ixrac potensialı və bu sahədə müqayisəli üstünlüklərə malik olan bir sıra kənd təsərrüfatı və aqrar-sənaye məhsullarının ixrac potensialının az bir hissəsi dövriyyədədir. Bu sahənin inkişafının sürətləndirilməsi üçün dövlət dəstəyi mexanizmlərinin mövcud olmasına baxmayaraq ixracın tənzimlənməsi, stimullaşdırılması tədbirlərinin səmərəliliyi aşağıdır. Regionun mövcud təbii resurslarının dərindən tədqiq edilməsi, mövcud potensialının obyektiv qiymətləndirilməsi zərurəti mühüm əhəmiyyət kəsb edir.

Hazırda regionda iqtisadiyyatının yenidən qurulması, bərpası və inkişaf etdirilməsi üzrə bir sıra köklü tədbirlər işlənib hazırlanıb və həyata keçirilib. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisindən başqa bütün vergilərdən azad olunması, aqrar sahəyə subsidiyaların verilməsi, kənd təsərrüfatı texnikalarının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya güzəştl şərtlərlə lizinq yolu ilə satılması, fermerlərin subsidiyalara əlçatanlığının daha da yaxşılaşdırılması, inşaat, turizm, biznes layihələri, informasiya-kommunikasiya texnologiyalarının yenilənməsi, yüksək tutumlu ehtiyat anbarları və soyuducu kameraların yenidən tikilməsi və ya əsaslı təmir olunması, yeni texnologiyalara əsaslanan bir sıra iri infrastruktur layihələrin həyata keçirilməsi və sair stimullaşdırıcı tədbirlərin görülməsi ixrac potensialının inkişafının şaxələndirilməsinə yüksək töhvə verəcəkdir.

**Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın formalaşdırılması üçün özəl sektorun ixrac əməliyyatlarında iştirakı genişləndirilməli, ixracın həcminin artırılmasına əlavə stimullar verən investisiya siyasəti həyata keçirilməlidir;**

Son illərdə qloballaşma dünya ticarətinə, milli iqtisadiyyatların ixrac potensialına güclü mənfi təsir göstərə bilmişdir. Qloballaşmanın hərəkəti elə bir səviyyədədir ki, onun qarşısını almaq olduqca çətin görünür. Biz müasir dövrdə qlobal iqtisadiyyatın faktiki hər bir sahəyə təsirini nəzərə almasaq, bu bir bağışlanılmaz səhv olardı. Məsələn, elə götürək sonuncu dünya qlobal maliyyə böhranının nəticələrinin neft ixrac edən ölkələrin iqtisadiyyatının inkişafında yaratdığı problemlər. Belə ki, bu kimi ölkələrin gəlirləri əsasən neftdən, neft gəlirləri isə dünya bazarında baş verən qlobal transformasiyalardan birbaşa asılı vəziyyətdədir. Ölkəyə daxil olan valyuta resurslarının azalması isə, ilk növbədə qeyri-neft sektoru sahələrinin inkişaf tempinə və onun ixrac potensialına mənfi təsir göstərir:

- xarici və daxili investisiyaların cəlbində problemlər üzə çıxır;
- qeyri-neft sektorunun ixrac təyinatlı mallarının dünya bazarlarına çıxışı məhdudlaşır;
- ixrac potensialının stimullaşdırılması üzrə ənənəvi dövlət mexanizmlərinin təkmilləşdirilməsi zərurəti ortaya çıxır;
- ixracın stimullaşdırılması üzrə əlavə dövlət dəstəyi mexanizmlərin formalaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi prioritetlərinin yeni şərtlər daxilində müəyyənləşdirilməsi zərurəti yaranır və s.

Azərbaycanın dünya iqtisadi sisteminə sürətli inteqrasiyası və bir çox inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrlə sıx iqtisadi əlaqələri, dünya maliyyə böhranının ölkə iqtisadiyyatına müəyyən mənada təsirinə gətirib çıxarmışdır. Neft istehsalçısı olan ölkələr kimi Azərbaycan dünya bazarında neftin qiymətinin ucuzlaşması ilə çox əhəmiyyətli zərərə məruz qalmışdır. İqtisadçı mütəxəssislər neft gəlirlərindən asılılığın azaldılması və qloballaşmanın təsirinə immuniteti artırmaq üçün qeyri-neft sektorunun inkişafını təmin etməklə, iqtisadiyyatın istehsal sahələrinin yüksək artım templərinə hazırlanmasını və qeyri-neft sektoru üzrə ixracın stimullaşdırılmasını vacib hesab etmişlər.

Qloballaşan dünyada istehlakçıların zövqlərinin artması, arzu və istəklərinin sonsuzluğu yeni məhsullara olan tələbatı

artırmaqdadır. İnsanların belə məhsullara olan tələbatının ödənilməsi isə müasir texnologiyalara, innovasiyalara əsaslanan və dünya bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalı ilə mümkündür[16].

Sənaye məhəlləsinin yaranmasında olan problemləri aşağıdakı şəkildə xarakterizə etmək olar:

- Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması;
- sənaye məhəlləsinin yaranmasında həyata keçirilən tədbirlərin icrasında olan ləngimələr;
- bu sahədə yüksək ixtisaslı, peşəkar mütəxəssislərin, intellektual qabiliyyətli insanların hazırlanma səviyyəsinin qeyri-mükəmməlliyi.

Qarşıya qoyulan əsas hədəflər Naxçıvan iqtisadi regionunda bitki yağları, ofis ləvazimatları, kağız-torba və corab məhsullarının istehsalını artırmaq, bazar iqtisadiyyatı şəraitində rəqabətqabiliyyətli və ixracyönümlülüyə nail olmaq, makroiqtisadi sabitliyi qorunmaq, monetar və fiskal siyasətin koordinasiyasını gücləndirmək, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyini gücləndirmək, regionun ixrac məhsulları arasında onların payının artırılmasına nail olmaq, yeni iş yerləri yaratmaq və bu əsasda əhalinin pul gəlirlərinin artırılmasını və həyat səviyyəsinin yüksəlməsini, həmçinin kənd yerlərində yaşayanların maddi rifah halının yaxşılaşdırılmasına kömək etmək kimi hədəflərə nail olunması regionun inkişafına əsaslı təkan verəcəkdir[17].

Sənaye məhəlləsində istehsal ediləcək yeyinti məhsullarının rəqabətyönümlülüyünün və yüksək dəyərliliyinin təmin edilməsi üçün bioloji komponentlərlə zəngin olan yerli xammaldan istifadə

[16] А. Заманов. "Влияние в перспективе“шарурско й промышленной зоны” на социально-экономическое развитие Нахчыванской Автономной Республики" Международный науичный журнал Экономики 2021 Выпуск № 2 ct 77

[17] Ə.Ş.Zamanov. **İ**xracyönümlü məhsullarin dünya bazarina çixarilmasi mexanizminin təkmilləşdirilməsi istiqamətləri**.** The XXI International Scientific Symposium "Science and Culture in the Modern World" dedicated to the Day of Solidarity of World Azerbaijanis 26 December 2021 Stockholm/ Sweden **səh 273**

etməklə bitki mənşəli məhsulların dad keyfiyyətinin artırılması onun perspektivdə bazara çıxışının zəruri şərtidir[18].

Hazırda Naxçıvan MR-də yüzlərlə növdə məhsul istehsal edilsə də bu məhsulların xarici bazarlara çıxışı məhdud çərçivədədir. Bunun da əsas səbəbi Naxçıvanın blokada şəraitində olması və beynəlxalq bazarlara çıxışının olmamasıdır.

Göstərilən problemlərin həlli məqsədilə ixracyönümlü müəssisələrin yaradılması və ixrac prosedurlarının sadələşdirilməsi məsələləri bu gün də davam etdirilməkdədir. Nəhayət bütün bunlar muxtar respublika əhalisinin məşğulluq səviyyəsinin yüksəlməsinə və rifah halının yaxşılaşmasına səbəb olacaqdır.Yuxarıda qeyd edilənlərlə yanaşı, dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş, Naxçıvan MR-də ixracyönümlü iqtisadiyyatın formalaşması və inkişafı istiqamətləri üzrə təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyada aparılan tədqiqata əsasən aşağıdakı nəticəyə gəlinib və müvafiq təkliflər irəli sürülüb:**

Son illərdə ölkəmizdə milli iqtisadiyyatın formalaşması və inkişafı kontekstində bölgələrdə iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafını nəzərdə tutan bir çox qərarlar qəbul edilmiş, mövcud ixrac potensialından səmərəli istifadə edilməsi, xarici ticarət əlaqələrinin həcminin genişləndirilməsi, məhsulların xarici bazarlarda reallaşması yönümündə əhəmiyyətli işlər görülmüşdür. Bunlara rəğmən, tərəfimizdən aparılan araşdırmalardan və təhlillərdən belə bir nəticəyə gəlirik ki, qəbul olunan qərarlar və reallaşdırılan tədbirlər Naxçıvan iqtisadi rayonunda mövcud olan təbii ehtiyatlardan və xammal mənbələrindən səmərəli istifadə etməklə ixracın həcminin artırılmasına yetərli olmamışdır.Odur ki, regionun iqtisadi potensialından səmərəli istifadə etməklə ixracyönümlü inkişafının təmin olunması üçün aşağıdakı istiqamətlər üzrə təklif edilən tövsiyələrin reallaşdırılmasını zəruri hesab edirik:

---

[18] Ə.Ş.Zamanov. Naxçıvan Muxtar Respublikasında ixracyönümlü sahibkarlıq sahələrinə dövlət dəstəyi.Naxçıvan Univeristeti ELMi ƏSƏRLƏR jurnalı – 2021 № 3 səh 16-17

- Naxçıvan MR-in sosial-iqtisadi cəhətdən güclənməsində, xarici ticarət əlaqələrinin genişlənməsində Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin işə düşməsi xüsusi əhəmiyyət kəsb edir. Bu yolun blokadada olması sosial-iqtisadi inkişafa mənfi təsir göstərir, bu sahədə olan problemlərin aradan qaldırılması üçün dəmir yol xəttinin açılması ən önəmli məsələlərdəndir;

- Naxçıvan Dövlət Universitetinin nəzdində texnoparkın yaradılması xarici ticarət fəaliyyəti sahəsində peşəkar kadrların *və* intellektual qabiliyyətli insanların yetişdirilməsini xarici ölkələrin gəncləri ilə birlikdə çalışmalar yaratmaqla sosial-iqtisadi texnoloji sahələrdə yenilikçi ideyalar iqtisadi inkişafa yeni güc qatar;

- elm və texnologiyanın son nailiyyətlərinə əsaslanan rəqabətqabiliyyətli və ixracyönümlü sahələrin inkişafına diqqətin artırılması və onların bazasında elm tutumlu məhsul istehsalına üstünlük verilməsi istiqamətində kompleks iqtisadi və təşkilati tədbirlər sisteminin işlənib hazırlanmasına və həyata keçirilməsinə ehtiyac vardır;

- müasir tələblərə cavab verən mütərəqqi sosial-iqtisadi infrastrukturun yaradılması, itkilərin qarşısının alınması məqsədilə istehsal, tədarük, emal, saxlanma (soyuducu kamera və anbarlar), marketinq (qablaşdırma, bağlama, dizayn və. s), daşınma və satış sahələrinə investisiyaların cəlb olunmasını stimullaşdırmağa ehtiyac vardır;

- gömrük keçid məntəqələrində moderinləşdirilmiş işlər aparılır, kimliklə giriş-çıxış işləri üzərində aparılan çalışmalar hələ də qalmaqdadır, bu işlər üzərində qurulan vergi-rusum və digər əngəllər aradan qaldırılmalı tarif tənzimləmə sistemlərinin, həmçinin daxil olan malların təhlükəsizliyinə nəzarət sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsinə ehtiyac vardır;

- Azad iqtisadi zona üçün iqtisadi-təşkilati problemlər, dünya standartlarına cavab verən təsərrüfat mexanizmi, səmərəlilik göstəriciləri işlənib hazırlamaqla və gələcəkdə logistika mərkəzlərinin də burada fəaliyyəti, ixracyönümlü istehsalın həcminin və ixrac bazarlarının coğrafiyasını şaxələndirməklə, keçmiş MDB, Yaxın Şərq ölkələri və Qərbi Avropa dövlətlərinin qabaqcıl

təcrübələrindən istifadə edərək tranzit qovşaqların, anbarların və texnoloji infrastrukturunun yaradılması ən önəmli məsələlərdəndir;

- birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatının qeyri-neft sektoruna, xüsusən də ixrac yönümlü emal sənayesi sahələrinə cəlb olunması, iqtisadi rezidentlərin dünya bazarına çıxışı, ixraca və valyutaya çıxışı istiqamətində kompleks iqtisadi və təşkilati tədbirlər sisteminin işlənib hazırlanmasına və həyata keçirilməsinə ehtiyac vardır;

- Naxçıvan MR-in məhsul istehsal edən müəssisələrin iqtisadi potensialının ixracyönümlülüyünün inkişaf etdirilməsi və dünya bazarında rəqabətədavamlı məhsullar səviyyəsinə çatdırılması vacibdir;

- Aqrar sahədə bazar infrastrukturunun xidmət əlaqələrini daha da təkmilləşdirməklə məhsul istehsalı, emalı və ixracının artırılması rəqabətqabiliyyətinin yüksəldilməsi üçün mövcud potensiallarından səmərəli istifadə etməklə dünya bazarına çıxışını təmin etmək məqsədə uyğundur;

- bütün ixracyönümlü sahələrdə yeni texnologiya və innovasiyalardan istifadə etməklə yerli məhsullardan idxalı əvəzedəbilən rəqabətədavamlı məhsul istehsalının həcminin artırılmasına nail olmaqla bərabər bu sahədə elmi-tədqiqat təcrübi işlərdən geniş istifadə etməklə ixracın həcmini sürətləndirmək lazımdır;

- mövcud təbii sərvətlərdən və mineral xammal mənbələrindən səmərəli istifadə etməklə ixtisaslaşmış iri sənaye müəssisələrinin yaradılmasını təmin etməklə ixracyönümlü əmtəələrin istehsal həcmini artırmaqla bu əsasda ixrac həcminin artımının ÜDM-un artım tempinə tədricən yaxınlaşmasına nail olmaq;

- muxtar respublikada tikinti materialları ehtiyatlarından səmərəli istifadə etməklə tam bir istehsal kompleksi yaratmaq olar ki, bunun da nəticəsində ixracın həcminin artırılmasına ciddi nail olmaq olar;

- Naxçıvan mənşəli məhsulların ixracyönümlü istehsal həcminin və ixrac bazarlarının coğrafiyasının genişləndirilməsi məqsədilə beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə

iştirak, xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və ya mağaza şəbəkələrində, o cümlədən "Duty Free"lərdə "Made in Azerbaijan" rəflərinin təşkili və təbliğini sürətləndirmək;

Naxçıvan Muxtar Respublikasında ixracyönümlü iqtisadiyyatın formalaşması və inkişafı ümumi prinsiplər əsasında təhlil edilmiş, əldə edilmiş müfəssəl yekun nəticə olaraq ixracyönümlü məhsulların davamlı inkişafı istiqamətində aşağıdakıların həyata keçirilməsini zəruri sayırıq:

- Naxçıvan Muxtar Respublikasında "Şərur Sənaye Məhəlləsi"nin tikintisinin sürətləndirilməsinə ehtiyac vardır;
- regionda aqrar sənaye parklarının yaradılması, aqrar sahədə yeni texnologiyaya əsaslanan innovasiyanın təsirini nəzərə almaqla kənd təsərrüfatında ixracyönümlü sahələrin inkişaf etdirilməsi istiqamətində işləri davam etdirilməklə onların çeşidinin artırılması mövcud potensialla ixrac arasındakı fərq tədricən aradan qaldırılmalıdır;
- bitkiçilikdə elit toxum sortları, mineral və üzvi gübrələrlə, dərman preparatlarının təminatını yaxşılaşdırmaqla, heyvandarlıqda isə cins mal qaranın tərkibinin yaxşılaşdırılması və süni mayalandırma və s. kimi tədbirləri həyata keçirməklə daha məhsuldar sortların yetişdirilməsi ilə məhsul istehsalının artırılmasına nail olmaq;
- birbaşa xarici investisiyalar cəlb etməklə birgə sahibkarlığın ixtisaslaşma və birgə kooperasiyanın stimullaşdırılması məqsədi ilə gömrük tənzimləmələrində tarif güzəştlərindən də istifadə etməklə ixracı sürətləndirmək məqsədəuyğundur;
- yerli istehsal hesabına idxalı əvəzedəbiləcək rəqabətədavamlı ərzaq məhsullarının istehsal həcminin artırılması daxili bazarın tələbatını ödəməklə prespektiv dövr üçün ixracın artırılmasına stimul yaradacaqdır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı dərc olunmuş əsərlərində öz əksini tapmışdır:**

1. "İdxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalı". Naxçıvan Dövlət Universiteti."Elmi

əsərlər"ictimai elmlər seriyası, 2018-ci il, №2 (91) II cild."Qeyrət" nəşriyyatı, Naxçıvan, 2018, s.174-177

2."Naxçıvan Muxtar Respublikasında ixracyönümlü sahibkarıq sahələrinə dövlət dəstəyi". Naxçıvan Dövlət Universiteti,"Elmi əsərlər" ictimai elmlər seriyası, 2021-ci il № 2(111) "Qeyrət" nəşriyyatı, Naxçıvan, 2021, s. 202-208.

3."Naxçıvan MR-də aqrar sferanın dinamik iqtisadi inkişafı və dövlətin ixrac siyasəti", "Elmi əsərlər" jurnalı İctimai elmlər seriyası, Naxçıvan Universiteti "Nuh" nəşriyyatı 2022,

№1(25) II hissə s.63-68

4. "Qərbi Zəngəzur: reallıqlar və problemlər" "Elmi əsərlər" jurnalı İctimai elmlər seriyası Naxçıvan Universiteti: "Nuh" nəşriyyatı 2023, № 4 (31) s. 216-222

5."Влияние в перспективе “Шарурско й промышленной зоны” насоциально-экономическое развитие Нахчыванской Автономной Республики", Международный научный журнал, №2, Москва, 2021, стр. 71-80.

6."Направления развития инновационной деятельности Азербайджане" "Наука и мир" Международный научный журнал, №11(99), 2021, Волгаград, стр.25-30

7."İxracyönümlü istehsal iqtisadiyyatın şaxələndirilməsi istiqamətlərindən biri kimi". Naxçıvan Dövlət Universiteti. "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş respublika elmi konfransının materialları", 28 fevral 2019-cu il,"Qeyrət" nəşriyyatı,Naxçıvan, 2019, s. 117-119

8."Naxçıvan-Türkiyə ticarət iqtisadi əlaqələrinin müasir vəziyyəti və təkmilləşdirilməsi yolları". Naxçıvan Dövlət Universiteti, "Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə" beynəlxalq konfrans materialları, 29 aprel 2019-cu il, "Qeyrət" nəşriyyatı, Naxçıvan, 2019, s. 115-119

9."Naxçıvan Muxtar Respublikasının ixrac potensialının müasir vəziyyəti və problemləri". Naxçıvan Dövlət Universiteti, "İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun aktual problemləri" mövzusunda elmi konfransın materialları, 14 noyabr 2019-cu il, "Qeyrət" nəşriyyatı, Naxçıvan, 2020, s. 37-43

10."Naxçıvan Muxtar Respublikasının rəqabətqabiliyyətli və

ixracyönümlü inkişafına keçidin innovativ istiqamətləri". Naxçıvan Dövlət Universiteti, "Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu" mövzusunda respublika konfransın materialları, 29 fevral 2020-ci il, Naxçıvan: "Qeyrət" nəşriyyatı, 2020, s. 98-103

11."Naxçıvan Muxtar Respublikasında ixracyönümlü iqtisadiyyatın qurulmasının prinsipləri və şərtləri". AMEA Naxçıvan bölməsi, "Naxçıvan Muxtar Respublikası dayanıqlı inkişaf, uğurlar perspektivlər" Beynəlxalq konfrans, İctimai-siyasi, ədəbi-bədii, elmi publisistik jurnal, № 38. "Əcəmi" Nəşriyyat-poliqrafiya birliyi, 14-15. 08. 2020, Naxçıvan, 2020,s. 89-93

12."Qloballaşan iqtisadiyyatda aqrar sahənin davamlı iqtisadi inkişafı və ixrac potensialı". Naxçıvan Dövlət Universiteti, "İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun aktual problemləri" mövzusunda elmi konfransın materialları, Naxçıvan: "Qeyrət" nəşriyyatı, 2020, s. 81-85.

13."Müstəqilik dövründə Naxçıvan MR-in maliyyə sisteminin inkişaf xüsusiyyətləri". Naxçıvan Dövlət Universiteti, "Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadi inkişaf və müasir maliyyə mexanizmləri " mövzusunda elmi-praktiki konfransın materialları, Naxçıvan: "Qeyrət" nəşriyyatı, 2021, s. 36-41

14."Ekoloji problemlər və Naxçıvan MR torpaq eroziyasının mühafizəsi istiqamətləri". Qərbi Kaspi Universiteti, "Aqrar təsərrüfatların inkişafının yeni istiqamətləri və ətraf mühitin mühafizəsi" mövzusunda respublika elmi konfrans, 30 yanvar 2021, Bakı, 2021, Qərbi Kaspi Universiteti, Sertifikat

15."Sahibkarlığın inkişafı ərzaq təhlükəsizliyinin başlıca şərtidir". Naxçıvan Universiteti, "Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi: Yerli istehsal və uğurlu nəticələr" mövzusunda respublika konfransın materialları, 26.05.2021,"Nuh" nəşriyyatı, Naxçıvan,2021, s.86-91

16. "Ulu öndər Heydər Əliyevin yüksək vətənpərvərlik və idarəçilik modeli: sabitlik, inkişaf və rifah"."Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər" mövzusunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş respublika elmi-praktiki konfransın

materialları, Bakı UNES, 2021, s. 538-542

17."İxracyönümlü məhsulların dünya bazarına çıxarılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri". "Science and Cultureinthe Modern Words" dedikatedtothe Day of Solidarity of Word Azerbaijanis. 26 Dekember 2021Stockolm / Swedens. 271-276

18. "Naxçıvan MR mövcud iqtisadi potensialı ixracın inkişafı və şaxələndirilməsi amili kimi". Naxçıvan MR sənayenin diversifikasiysı beynəlxalq iqtisadi inteqrasiya amili kimi" Beynəlxalq konfransın materialları. Naxçıvan Universiteti: "Nuh" nəşriyyatı, 2022, s.169-176

19. "İpək yolu region əhalisinin maddi rifahının yüksəldilməsi amili kimi". Naxçıvan mövzusunda Beynəlxalq konfransın materialları 22-23 noyabr 2022 səh. 201-208

20. "Texnoparklar və konsaltinq xidmətlər: reallıqlar və problemlər ". Naxçıvan Dövlət Universiteti "Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu" mövzusunda beynəlxalq simpozium 2023 səh 165-171

21. "Naxçıvan MR-də xarici ticarət və logistikanın müasir vəziyyəti və problemləri". Naxçıvan Dövlət Universiteti "Naxçıvan beynəlxalq ticarət və logistika mərkəzi kimi" mövzusunda respublika elmi konfransının materialları, Naxçıvan, Qeyrət" nəşriyyatı, 2023, səh.49

Dissertasiynın müdafiəsi 10 sentyabr 2024-cü il tarixində saat 11-$^{00}$ da Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.24 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan Muxtar Respublikası
e-mail: ndu@edu.com.az

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq (elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin adı) mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında (wwwndu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 09 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  29 .07.2024
Kağızın formatı: A5
Həcm: 45274
Tiraj:100